# İLK TİBBİ YARDIM

Yol-nəqliyyat hadisəsi nəticəsində xəsarət almış şəxslərə ilk tibbi yardımın göstərilməsi üzrə

**MƏLUMAT KİTABÇASI**

# DƏRMAN QUTUSUNDAN İSTİFADƏ TƏLİMATI
(ilk tibbi yardım)

Dərman qutusundakı hər hansı vasitə tam istifadə edildikdə, onun qabı zədələndikdə, habelə yararlılıq müddəti bitdikdə, yerinə yenisi qoyulmalıdır.

**Dərman qutusu nəqliyyat vasitəsində elə yerdə saxlanılmalıdır ki, ətraf mühitin təsiri (günəş şüaları və s.) onun içindəki vasitələrə zərər yetirməsin!**

## İlk tibbi yardım zamanı DİQQƏT EDİLMƏLİ olan məqamlar

- Kömək gələnə qədər **əvvəlcə** maşın işlək vəziyyətdədirsə, söndürün; maşından sızan benzin və ya hər hansı yanıcı maddəyə qarşı diqqətli olun; ətrafdakılara siqaret çəkməməyi bildirin.
- Maşının arxa və ön tərəfinə **qəza dayanma nişanı** quraşdıraraq digər yol hərəkəti iştirakçılarının təhlükəsizliyini təmin edin.
- Qəzaya uğramış maşında **sıxılıb qalmış yaralı** olarsa, yardım gəlməmiş çıxarmağa çalışmayın və onu sakitləşdirin.
- Yaralıya **sadə suallar verərək**, şüurunun yerində olub-olmadığını öyrənə bilərsiniz. O, suallara məntiqli cavablar verirsə, deməli, şüurunu itirməyib.

# MÜXTƏLİF HALLARDA İLK YARDIM

**İlk tibbi yardımın göstərilməsi zamanı bütün hərəkətlər tibbi əlcəklərdən istifadə edilməklə aparılmalıdır!**

## ONURĞA ZƏDƏLƏRİNDƏ

Onurğa yaralanması zamanı boyunluq bağlanana qədər yaralı ilə danışarkən belə, boynunu oynatmamağına diqqət yetirmək lazımdır.

**Tibbi yardım haqqında məlumatınız yoxdursa, təcili tibbi yardım maşını gələnə qədər yaralının yerindən tərpədilməsinə icazə verməmək ən doğru qərardır.**

## SÜMÜK QIRIQLARI ZAMANI



Qırıqların başlıca əlamətləri ağrı və şokdur. Qırılmış qol və ya ayaq şişir, forması pozulur və toxunduqda ağrıyır. Yaralıda sınıq olduğundan şübhələnirsinizsə, həmin hissəni oynatmamalı, yaralı hərəkət etməməlidir. Sarğı bezi ilə qırıq hissəni sabit vəziyyətdə saxlamaq, ağrı və şişi az da olsa, azaltmaq üçün soyuq kompres tətbiq etmək faydalı olar.

# ÜRƏYİN QAPALI MASAJI VƏ SÜNİ TƏNƏFFÜS

**Xəsarət alan şəxs müstəqil nəfəs almadıqda, steril salfet vasitəsi ilə ona süni tənəffüs verilməlidir.**

- ✓ Ləngimədən zərərçəkəni arxası üstə çevirib, kürəyi bərk və hamar müstəvi üzərinə (stol, döşəmə, torpaq və s.) uzadıb ürəyin qapalı masajına başlayın.
- ✓ Bunun üçün qollarınızı dirsək oynağında tam açıq tutaraq, bir əlinizi digərinin üzərinə qoyaraq barmaqlarınızı qıfıl şəklində bir-birinə keçirin və döş sümüyünün aşağı hissəsinə qoyun (şəklə bax).
- ✓ Aşağıdakı əlin barmaqları yuxarıya baxmalıdır.
- ✓ Döş qəfəsini 30 dəfə 5-6 sm dərinlikdə sıxıb buraxın.

  **30 sıxmanı təxminən 18 saniyə müddətində etmək lazımdır.**

- ✓ Döş qəfəsinin sıxılma ritmi "Əsgər" sözünün dəfələrlə təkrarına uyğundur 3 dəfə döş qəfəsini sıxaraq "Əsgər" sözünü təkrarlayıb ritmi tutun və ucadan 4,5,6 ... sayaraq sıxmaları davam edin.
- ✓ 30 sıxmadan sonra iki ardıcıl süni nəfəs (30:2 nisbətində) verin.
- ✓ Nəbz və tənəffüs bərpa olunmayıbsa, təcili tibbi yardım gələnə qədər süni nəfəs verməyə və ürəyin qapalı masajına davam edin.





Tənəffüsü yoxlayın

Nəbzi təyin edin





Ürəyin qapalı masajına başlayın

**30 dəfə** → **2 dəfə** → **30 dəfə**







5-6 sm dərinlikdə

Süni nəfəs

5-6 sm dərinlikdə

# QANAXMALARDA

Ətraflarda böyük (əsas) arteriyadan arterial qanaxma halında, qanaxma nöqtələrinə barmaqlarla basaraq yara sahəsindən yuxarı hissədə bazu və ya bud nahiyəsinə jqut sarınmalı, jqut qanaxma dayanan həddə kimi sıxılmalı və fiksə edilməli, jqutun sarınma vaxtı qeydə alınmalı və yaranın üzəri steril salfetlə örtülərək steril bintlə sarğı qoyulmalıdır;



**Şiddətli qanaxmaların vaxt itirmədən dayandırılması və qısa zamanda yaralının xəstəxanaya çatdırılması çox vacibdir. Yaradan qan axmasının qarşısını almaq üçün qanayan yeri möhkəmcə basmaq lazımdır.**

Qanın axması dayandıqda isə yaranın üzəri sarğı bezi ilə bir neçə dəfə sarılmalıdır. Sarğını açıb qanlı bezi və pambığı dəyişdirmək qanın laxtalanmasını və qanamanın dayanmasını gecikdirir.



## YARA OLDUĞU HALDA



- ✓ Steril salfet və bintdən istifadə edilməklə yaranın üzəri **sıx sarınmalıdır.**
- ✓ Qanaxma olmadıqda və sıx sarğının tətbiqi alınmadıqda yaranın üzərinə steril salfet qoyularaq leykoplastrla **yapışdırılmalıdır.**
- ✓ Mikrotravmaların üzərinə bakterisid leykoplastr **yapışdırılmalıdır.**

## YANIQLAR OLDUQDA



- ✓ Yanıq yerinə sıx olmayan steril **sarğı qoy.**
- ✓ Bədənin yanmış yerinə yapışan heç nəyə **toxunma.**
- ✓ Yanığı soyutmaq üçün buzdan **istifadə etmə.**
- ✓ Plastrdan **istifadə etmə.**

**İlk tibbi yardım həkimləri gələndə onlara etdikləriniz haqqında məlumat verin!**

# Qəza anında zəng edin:

**103** – ilk zəng ediləcək telefon nömrəsi olmalıdır. Bu nömrəyə Azərbaycanın istənilən bölgələrində mobil və ev telefonlarından pulsuz zəng edə bilərsiniz.

**112** – nömrəli telefona maşında sıxılıb qalmış şəxs olduqda zəng edilməlidir.

**İlk yardım barəsində məlumatınız yoxdursa, yaralıya toxunmayın!**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ